# Qran-pri mükafatı laureatı

Nilufər Cəfərli 1995-ci ildə Bakı şəhərində anadan olub. Paytaxtdakı 87 nömrəli tam orta məktəbi bitirib. 2002-ci ildə 3 nömrəli Uşaq İncəsənət Məktəbinin fortepiano şöbəsinə daxil olub. İlk uğuruna 2007-ci ildə imza atıb. Gənc Pianoçuların Q.Qarayev adına Bakı müsabiqəsində III dərəcəli diploma layiq görülən Nülüfər 2008-ci ildə Q.Qarayevin anadan olmasının 90 illik yubileyinə həsr olunan elmi ifaçılıq müsabiqəsində diploma, ümummilli lider Heydər Əliyevin anadan olmasının 85 illik yubileyinə həsr olunan I Respublika müsabiqəsində diplomant adına layiq görülüb. 2010-2012-ci illərdə təhsilini Ə.Bədəlbəyli adına 23 nömrəli Onbirillik Musiqi Məktəbində davam etdirən gənc ifaçı bu illərdə Kapellhausda 2 dəfə solo konsertlə çıxış edib. 2011-ci ildə Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasının təşkil etdiyi F.Listin 200 illiyinə həsr olunan gənc pianoçuların festivalında uğurla çıxışına görə o, diplomla təltif edilib, eyni zamanda M.Maqomayev adına Filarmoniyada dirijor F.Kərimlinin rəhbərliyi altında Dövlət Simfonik Orkestri ilə birlikdə F.Listin 2 saylı konsertini ifa edib. 2012-ci ildə gənc pianoçuların II Respublika müsabiqəsində III dərəcəli diploma və müsabiqənin laureatı adına layiq görülüb. Niluferin sənətə olan məhəbbəti, onlarla müsabiqədə qazandığı uğurlar əsas verir deyək ki, bu gəncin parlaq gələcəyi var.




Çoxlu sayda diplomlar sahibi olan N. Cəfərli 2012-ci ildə Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasının fortepiano şöbəsinə professor Oqtay Abbasquliyevin sinfinə daxil olub.

O, 2013-cü ildə "Azər Dadaşovun fortepiano əsərlərinin ən yaxşı ifası" üzrə ali məktəblərarası və II Respublika müsabiqəsində I dərəcəli diploma, ümummilli lider Heydər Əliyevin anadan olmasının 90 illik yubileyinə həsr olunmuş "Ali təhsil müəssisələrinin tələbələri arasında musiqi ifaçılarının müsabiqəsi"ndə isə I yerə layiq görülüb.

2014-cü ildə o, Bakı Musiqi Akademiyasının böyük zalında solo konsert verib və həmin ildə Türkiyənin İstanbul şəhərində keçirilən beynəlxalq "IX Pera Piyano Festivalı" yarışmasında II dərəcəli diplomla mükafatlandırılıb.

2016-cı il Nilufər Cəfərli üçün daha uğurlu olub. O, Çexiya Respublikasının Praqa şəhərində keçirilən "IV İnternational Art-Competition and Fetival" adlı müsabiqədə Qran-pri mükafatına sahib olub. Hazırda Bakı Musiqi Akademiyasının fortepiano fakültəsinin IV kurs tələbəsi Nilufər Cəfərli dərslərində də fəaldır. Semestr imtahanlarını əla qiymətlərlə başa çatdıran gənc istedadlı musiqiçi böyük sənətkarların davamçısı olacağına əmindir.